«ƏHMƏD AĞAOĞLU VƏ TÜRK DÜNYASI»
Beynəlxalq elmi konfransın
MATERİALLARI
Bakı, 16 noyabr 2023-cü il

PROCEEDINGS
of International Scientific Conference on
«AHMET AGAOGLU AND THE TURKIC WORLD»
Baku, 16 November 2023

https://doi.org/10.59849/iscaatw.2023.5

Arif Acaloğlu*

ƏHMƏD AĞAOĞLUNUN "ÜÇ MƏDƏNİYYƏT" ƏSƏRİ İŞIĞINDA MƏDƏNİYYƏT-SİVİLİZASİYA-KÜLTÜR ANLAYIŞLARI

Xülasə

Əhməd Ağaoğlunun "Üç mədəniyyət" əsəri onun irsində önəmli bir yer tutur. Bu əsərdə müəllif Buddizm, İslam və Qərb uyqarlıqlarını müqayisə edərək sonuncunun o birilər üzərində qalib durumda olduğunu və Türklərin gələcək naminə onu seçməsi gərəkdiyini göstərmişdir. "Üç mədəniyyət"də bu mövzular uyqarlıq / sivilizasiya ayrımı aparılmadan araşdırılır. O dövrün Türkiyə türkcəsində olduğu kimi, Ə.Ağaoğlu da, məşhur sosioloq Z.Gökalp da "mədəniyyət" sözünü sivilizasiya anlamında işlədirdilər. Sonradan Gökalpın təklif etdiyi mədəniyə / uyqarlıq – hars / kültür ayrımı Türk humanitar fikrində mərkəzi mövqe qazandı. Başlıca Avropa dillərində də bu iki anlayış ayrı-ayrı söz-terminlərlə ifadə edilir. Azərbaycan türkcəsində isə bu anlayışların ayrılmaması (ikisinin də "mədəniyyət" sözü ilə ifadə edilməsi həm epistemoloji, həm də terminoloji problemlərə səbəb olur. Bu məqalədə problemin funksional-semantik və leksikoqrafik aspektləri araşdırılır. Azərbaycan türkcəsində "mədəniyyət" söz-termininin iki fərqli anlamının (sivilizasiya və kültür) problemsiz ifadə edilə bilməsi üçün "uyqarlıq" və "kültür" söz-terminlərinin qəbulu təklif edilir.

Açar sözlər: Əhməd Ağaoğlu, "Üç mədəniyyət", mədəniyyət, uyqarlıq, hars / kültür

* Marmara Universiteti Türk dili və Ədəbiyyatı bölümü, öyrətim üyəsi, filologiya üzrə fəlsəfə doktoru, arifacal22@gmail.com

Konfransdan bir gün öncə baş vermiş avtomobil qəzasında dünyasını dəyişmişdir. Ruhu şad olsun!

Giriş. Ağaoğlu Əhməd bəyin elmi-publisistik mirasında "Üç mədəniyyət" başlı-başına mərhələ olduğu kimi, Türk toplum araşdırmalarında da göz önündə tutulması gərəkən önəmli bir əsərdir. Türkiyədə çox məşhur olan, elmi və ictimai araşdırmalarda istinad edilən, başlıca ideyaları hələ də müzakirə edilən bu çalışma, çox təəssüf ki, Azərbaycan ictimai fikrində yaxşı bilinmir, ideyaları Azərbaycan elmində təsvir və təhlil edilməmişdir. Yalnız dəyərli alimlərimizdən mərhum Əziz Mirəhmədovun bu sahədəki çalışması önəmli bir istisnadır [1, s. 211-252].

Əsas hissə. Öncə "Türk Yurdu" dərgisinin bir neçə sayısında işıq üzü görən "Üç medeniyet" 1927-ci ildə kitab halında yayımlandı. Kitabın ön sözündə Ə.Ağaoğlu əsərin yazılma və yayımlanma tarixi, məzmunu və məqsədləri barədə deyir: "Bu eser 1919-1920 yıllarında Malta' da yazılmış ve memlekete döndükten sonra "Türk Yurdu" dergisinde parça-parça yayımlanmıştı. Eserin konusu dünya üzerinde yan-yana yaşayan üç medeniyetten birisinin, yani Batı medeniyetinin diğerlerine galip geldiğini ve dolayısıyla kurtuluşumuz için bu medeniyeti olduğu gibi benimsemekten başka çare olmadığını göstermekti" [2, s.13]. Və əlavə edir: "Bugün bu konu eski önemini kaybetmiştir." Əlbəttə, o illərdə sırf siyasi anlamda "konu önemini kaybetmiş" ola bilərdi, çünki 1920-ci illərin sonuna gəlindiyində artıq uğurla bitmiş İstiqlal Savaşı və Ə.Ağaoğlunun da vurğuladığı "böyük inqilab" sayəsində üç mədəniyyət arasında bir seçim edilmiş və "Batı mədəniyyətinə" inteqrasiya başlamışdı. Lakin həm sosial elmlər, həm də mədəniyyət araşdırmaları baxımından mövzu bu gün belə aktualdır.

Türkiyə türkcəsində (və "Üç mədəniyyət"də) "mədəniyyət" sözü "sivilizasiya" sözünün sinonimidir. Ə.Ağaoğlu hətta bu əsərdən təqribən 15-16 il sonra yayımlanan məqalələrində "kültür" sözünü də bu mənada işlədir [3, s.4].

Yəni Ə.Ağaoğlu (Gökalpdan fərqli olaraq) "mədəniyyət/sivilizasiya" və "hars/kültür" anlayışları arasında bir ayrım görmür, bunları müzakirə etmir və diqqətini başqa bir məsələyə – mədəniyyətlər/sivilizasiyalar arasındakı fərqlərə, bənzərliklərə, tarixi mübarizəyə yönəldir. (Bu baxımdan S.Hantinqtonun məşhur "Sivilizasiyaların toqquşması" kitabını təxminən 77 il qabaq-

lamışdır). Beləliklə, müəllifin məqsədi siyasət və sosiologiya sahələrinin sərhədləri ilə məhdudlaşır. O, XX yüzilliyin başlanğıcında, demək olar ki, bütün dünyaya hakim olan üç sivilizasiyanı müqayisə edir, güclü və zəif yönlərini göstərməyə, hansının yaşama qabiliyyətinin daha yüksək olduğunu müəyyənləşdirməyə çalışır. Uyqarlığın başlıca ünsürləri saydığı din, əxlaq, ailə, cəmiyyət, dövlət və b. kimi sahələrə aid təhlillər əsasında "Qərb mədəniyyətinin" üstünlüyünə və mənimsənməsi gərəkdiyinə qərar verir.

Dövrün ictimai-siyasi atmosferi və humanitar fikrin başlıca istiqamətləri kontekstində Ə.Ağaoğlunun təsbitləri və görüşləri əsaslı və tutarlıdır. Və hansı sivilizasiyanı seçmək məsələsinin Ə.Ağaoğlu tərəfindən sırf siyasi faktorlarla deyil, həm də elmi əsaslara söykənilərək həll edildiyini görürük. Dünyanın bu gün gəldiyi nöqtə Ə.Ağaoğlunun düşüncələrinin bir çox yöndən haqlı və tutarlı olduğunu göstərməklə bərabər, Qərb sivilizasiyasının qəbulu prosesinin və ilgili mexanizmlərin onun təsəvvür etdiyindən fərqli şəkillərdə gerçəkləşdiyini də göstərir.

Ə.Ağaoğlu "mədəniyyət" anlayışına bunları daxil edir: din, əxlaq, fərd, ailə, cəmiyyət, dövlət, hökumət. İstər o dövrün, istər də günümüzün "mədəniyyət"/sivilizasiya anlayışı baxımından bu siyahı əskikdir. Lakin yazarın məqsədləri baxımından yetərli görünə bilər. Çünki burada onun məqsədi "mədəniyyət" anlayışının geniş təhlilini vermək deyil, bu anlayışı bir postulat olaraq qəbul edib "üç mədəniyyət" arasında bir seçimin önəmini vurğulamaq və Qərb mədəniyyətini mənimsəmək gərəkdiyini sübut etməkdir. Bu tezisin (Qərb "mədəniyyətinin" qəbulunun) doğru olub-olmadığı barədə uzun mübahisələr aparmaq mümkündür, lakin məqalədə məqsədim bu deyil. Mən burada hansı "mədəniyyətin" gərəkli və ya "üstün" olub-olmadığını deyil, Ə.Ağaoğlunun işlətdiyi "mədəniyyət" və "kültür" anlayışlarının məzmununu və qarşılıqlı münasibətlərini müzakirə etmək istəyirəm. Özəlliklə də müasir Azərbaycan türkcəsində bu anlayışların funksional-semantik yükü üzərində durmaq önəmlidir.

Amma bu nöqtədə məqalənin terminoloji aparatı barədə izahat vermək gərəkdiyini düşünürəm. İstifadə etdiyim terminlər Türkiyə və Azərbaycan türkcələrində, həmçinin Ə.Ağaoğlunun

əsərlərində və bu məqalədə bəzən yaxın, bəzən fərqli mənalarda işləndiyindən, bəzən də tam və ya qismi sinonimlik ifadə etdiyindən məsələni başdan aydınlaşdırmaq gərəkir.

Ə.Ağaoğlunun dilində: *mədəniyyət* (sivilizasiya), *kültür* (sivilizasiya, eyni zamanda günümüzdəki anlamıyla: kültür);

Çağdaş Türkiyə türkcəsində: *medeniyyet*/*uyqarlıq* (sivilizasiya), *kültür*;

Çağdaş Azərbaycan türkcəsində: *mədəniyyət* (1. sivilizasiya; 2. kültür).

Bu terminoloji fərqlilikləri nəzərə alaraq, istifadə edilən mənbələrin terminologiyası ilə bu məqalənin terminologiyası arasında mümkün anlaşılmazlıqları ortadan qaldırmaq məqsədilə bu məqalədə *mədəniyyət* (Ə.Ağaoğlu – Türkiyə türkcəsi) yerinə *uyqarlıq*, Azərbaycan türkcəsindəki (iki fərqli anlamı olan) *mədəniyyət* qarşılığında isə yerinə görə *uyqarlıq* (sivilizasiya) və *kültür* (mədəniyyət) söz – terminləri işlədiləcək.

Ə.Ağaoğlu üç uyqarlıqdan bəhs edir. Bu ilk baxışda yanlış və əksik görünə bilər. Çünkü XIX yüzillikdən başlayaraq həm kültür tarixi, həm də uyqarlıq araşdırmalarında çox sayda uyqarlıqdan bəhs edilir. Lakin insanlığın taleyinə dünya çapında təsir edə bilən uyqarlıqlardan söhbət getdiyinə görə, Ə.Ağaoğlu, heç şübhəsiz, haqlıdır. Burada, ümumiyyətlə, uyqarlıqlardan deyil, müasir dünyada Türk millətinin varlığını qoruması və gələcəyini təmin edə bilməsi üçün bir *uyqarlıq seçimi*ndən söhbət gedir. Buna görə də müəllif dünyaya hakim mövqedə olan 3 mədəniyyət bəlirləyir və onları qarşılaşdırır. Bir tərəfdən müəllifin siyasət və sosiologiya mərkəzli yanaşması (Ağaoğlu ilk çalışmalarından başlayaraq bütün məsələlərə bu baxımdan yanaşmışdır); o biri tərəfdən də I Dünya Savaşının və ayaq səsləri dünyanın hər yanında eşidilməyə başlayan büyük dəyişimin (inqilabların) oluşturduğu ortam müəllifi öncəliklə Türk toplumunu gözləyən dəyişimlər kontekstində etkili ola biləcək gücləri müəyyənləşdirməyə yönəldir. Uyqarlıq sisteminin müxtəlif sahələrini (din, əxlaq, fərd, ailə, cəmiyyət, dövlət, hökumət) əhatə edən təhlillər sonucunda Ə.Ağaoğlu, yuxarıda da deyildiyi kimi, seçimini Qərb mədəniyyəti olaraq açıqlayır. Və çalışmasının kitab variantının ilk nəşrin-

də (1927) bu öngörünün özünü doğrultduğunu məmnunluqla ifadə edir.

Humanitar fikirdə uyqarlıqlar nəzəriyyəsi yeni görünsə də, əslində kökləri çox əski çağlara qədər uzanır. Bu nəzəriyyənin təməli dünyada bir deyil, çox sayda uyqarlıq olduğu, bunların hər birinin öz içində bir sistem təşkil etdiyi, həmçinin doğum, inkişaf / yüksəliş, çöküş/ölüm kimi mərhələlərdən keçdiyi ideyasına dayanır. Bu çərçivə daxilində məkan baxımından polisentrizm (çoxmərkəzlilik), zaman baxımından isə dövri zaman anlayışı hakim durumdadır. Bu yönü ilə də uyqarlıqlar nəzəriyyəsi xətti zaman anlayışına əsaslanan irəliləməçi/təkmərkəzçi uyqarlıq nəzəriyyəsinə qarşıdır. Bu yanaşmanın ən əski örnəyi qədim Çin tarixçisi Sıma Tsyanın məşhur "Tarix qeydləri" əsərində görünür. Tam bir nəzəriyyə halını alması və sistemləşdirilməsi isə İbn Haldunun "Müqəddimə" əsərində gerçəkləşdirilmişdir. Avropada XVIII yüzillikdə C.B.Viko və XX yüzillikdə O.Şpenqler də bu nəzəriyyənin təmsilçiləridirlər, fəqət onlar təhlildən çox fenomenin təsviri ilə məşğul olmuşlar. XX yüzillikdə A.Toynbi və L.Qumilyov bu nəzəriyyənin iki önəmli təmsilçisi oldular. A.Toynbi ilk dəfə 1936-cı ildə yayımlamağa başladığı "Tarix çalışmaları" əsərinin müxtəlif cildlərində dünya tarixində gəlib keçmiş uyqarlıqlar ilə ilgili 13 ilə 39 arasında dəyişən müxtəlif saylar verir. Sonuc olaraq 13 uyqarlıq təməl, geriyə qalanlar isə törəmə uyqarlıqlar kimi təqdim edilir. (Burada uyqarlıqların bəlirlənmə prinsipləri, tarixi dəyişim dinamikası, bu sayların dünya uyqarlıq mənzərəsini doğru əks etdirib-etdirmədiyi kimi məsələlərə toxunmuram. Zira bunlar müzakirə etdiyim məsələnin mahiyyətini dəyişmir). Tarixçi və etnoloq L.Qumilyov isə 1960-cı illərdən etibarən tamamilə yeni bir etnos nəzəriyyəsi yaratmağa başladı və onun əsasında daha əhatəli bir uyqarlıq nəzəriyyəsi formalaşdırdı. L.Qumilyovun etnoloji nəzəriyyəsinin ən önəmli özəlliyi *uyqarlıq* və *kültür* sahələri (və anlayışları) arasındakı mürəkkəb ilişgiləri sistem halında ortaya qoya bilməsidir. Qısaca ifadə etmək gərəkirsə, onun fikrincə, kültür etnoslarla, uyqarlıq isə super etnoslarla bağlantılıdır. Beləliklə, son 2-3 yüzillik boyunca araşdırmaçıları məşğul edən uyqarlıq-kültür probleminin tutarlı bir şəkildə çözülə bilməsinin yolu açıldı.

Uyqarlıq-kültür problemi, özəlliklə, Türk tarixi baxımından həyati önəm daşıyır. XX əsrin əvvəllərində bu məsələ bir tərəfdən bilim insanlarının, o biri tərəfdən də siyasət və toplum öndərlərinin diqqətini çəkməyə başladı. Bu fikir atmosferində Avrasyanın geniş bölgələrini, haradasa, tamamını əhatə edən Türk uyqarlığının (o dövrün termini ilə – "mədəniyyətinin") təsir dairəsinin çox geniş, kültürəl etki alanlarının isə bundan bir az daha dar olması gerçəyi bu məsələnin açıqlanmasını gündəmə gətirməliydi. Belə də oldu və bu ortamda Z.Göyalp o zamana qədər tək bir "mədəniyyət"/"temeddün" sözü ilə ifadə edilən bu iki fərqli sahənin sərhədlərini müəyyənləşdirmək və terminolojini dəqiqləşdirmək ehtiyacı hiss etdi. Öncə "Türk mədəniyyəti tarixi", daha sonra isə "Türkçülüyün əsasları" əsərlərində kültür sahəsini ifadə etmək üçün "hars" söz – terminini təklif etdi. Buna görə, uyqarlıq anlayışı "mədəniyyət", kültür anlayışı isə "hars" ilə ifadə ediləcəkdi. O zamana qədər bu iki anlayış/məfhum (Ə.Ağaoğlunda da gördüyümüz kimi) "mədəniyyət" olaraq ifadə edilirdi. Gökalp, sələfi Durkheymə əsaslanaraq, "civilzation" və "cultura" terminləri qarşılığında iki ayrı terminə ehtiyac olduğunu vurğulayıb, "mədəniyyət" və "hars" terminlərinin işlədilməsinin uyğun olduğunu adıçəkilən kitablarında əsaslandırdı. Qısa bir zaman (10-15 il) sonra "hars" öz yerini "kültür" söz – termininə buraxdı. Bir sürə sonra isə "mədəniyyət" yerinə "uyqarlıq" termini işlədilməyə başlandı ("sivilizasiya" termini isə Türkiyə türkcəsində heç bir zaman işlədilməyib). Z.Gökalpın təklif etdiyi "hars" sözü əslində "cultura" sözünün tərcüməsi, hətta kalkasıdır. Latınca "cultura" kimi ərəbcə "hars" da türkcədə "əkin" deməkdir. (Hətta 70-ci illərdə bəzi müəlliflər "kültür" yerinə "əkin" işlətməyə başladılar, lakin bir müddət sonra əl çəkdilər). Beləliklə, günümüz Türkiyə türkcəsində "cultura" anlayışı "kültür", "sivilizasiya" isə əsasən "uyqarlıq", bəzən də (yaşlı nəslin və mühafizəkar kəsimlərin dilində) "mədəniyyət" terminləri ilə ifadə edilir.

Uyqarlıq və kültür anlayışlarının funksional-semantik sərhədləri çox zaman mübahisə obyekti olsa da, bunların iki ayrı anlayış olduğu və iki ayrı terminlə ifadə edilmələri zərurəti bütün dünyada olduğu kimi, Türkiyədə də qəbul edilir. Və bütün dillər-

də olduğu kimi, Türkiyə türkcəsində də bu iki anlayışa uyğun iki söz-termin işlədilir. Yəni ortada hər hansı bir epistomoloji ziddiyyət və ya linqvistik qarşılıq qalmamışdır.

İ.Kafesoğlu 1960-cı illərdə Türkiyə elmi ədəbiyyatına "Bozkır mədəniyyəti" anlayışını gətirdi. Bu tanımlamayla Avrasiyanın bozkır/step zolağında minillərcə hakim konumda (mövqedə) olan Türk uyqarlığını nəzərdə tuturdu. Bir uyqarlıq tipi (Qumilyov terminologiyasına görə − super etnos) olaraq tarixi Bozkır (çöl, step) Uyqarlığının bir başqa adı da Atlı-Köçəri Uyqarlıqdır[1]. Beləliklə, XX yüzilliyin əvvəllərində Z.Gökalp və Ə.Ağaoğlu kimi araşdırmaçıların gündəmə gətirdiyi uyqarlıq/mədəniyyət müzakirələri aradan 40-50 il keçdikdən sonra Türk uyqarlıq tipologiyası və tarixinin araşdırılması işinin təməllərini oluşdurdu. Özəlliklə, Dürkheym sosiologiyasından hərəkət edən Z.Göyalpın Türk humanitar fikrinə ən önəmli töhfəsi olan uyqarlıq-kültür ayrımı bu sahədə bəlirləyici rol oynadı. Bu gələnək (ənənə) çərçivəsində insanlığın gəlişdirdiyi maddi-texniki-mənəvi dəyərlər sistemi bir bütün olaraq "uyqarlıq", bu sistemin əlaqələr düzəni/işləyiş mexanizmi isə "kültür" olaraq tanımlana bilər (məqalənin sonunda bu tanım bir az da dəqiqləşdiriləcək). Bu ayrım 100 ildən bəri türk uyqarlıq-kültür araşdırmalarının onurğasını oluşdurur.

Burada (mövzu ilə birbaşa bağlı olmasa da) Türk uyqarlığı ilə ilgili adlandırma probleminə də toxunmaq istəyirəm. Az öncə deyildiyi kimi, bu sahədə "Bozkır Uyqarlığı" və ya Atlı-Köçəri Uyqarlıq" adlandırmaları var və bunlar obyekti əsas etibarilə doğru tanımlayır. Bunlardan başqa, XIX yüzillikdə sıx-sıx işlədilən "Turan uyqarlığı" və SSRİ dağıldıqdan sonra ortaya çıxan "Avrasiya uyqarlığı", "Orta Asiya uyqarlığı" terminləri də var.

Bunlardan "Orta Asiya uyqarlığı" termini konkret məzmunu olmayan və təməlsiz bir tanımlamanı ifadə edir. Birincisi, Orta Asiya anlayışının coğrafi sərhədləri müxtəlif ölkələrdə fərqli şəkildə qəbul edilir, yəni terminin coğrafi konkretliyi yoxdur.

[1] Bu termini (конно-кочевая цивилизация) 1970-ci illərin başında məşhur qazax alimi Murad Auezov təklif etmiş və o dövrdə Qazaxıstanda Türk uyqarlığı araşdırmaları sahəsində yeni bir perspektiv açmışdı.

İkincisi, etnik (və superetnik) məzmunu müəyyən deyil. Bu baxımdan, uğurlu bir termin deyil.

"Avrasiya uyqarlığı" termini 90-cı illərdə Rus araşdırmaçılar tərəfindən icad edildi və yeni Türk dövlətlərində də bəzi müəlliflər tərəfindən işlədilməkdədir. Burada da ciddi problemlər var. Birincisi, Avrasiya haradır? İkincisi, bu uyqarlığın təməlini (və ya ağırlık mərkəzini) hansı milli gələnək bəlirləyir: rusmu, türkmü? Hətta bəzi ideoloqlar və araşdırmaçılar tamamən kültürəl anlam daşıyan və əsasən Avrasiya materikinin Quzey bölgələrini əhatə edən klassik Avrasiya anlayışı ilə coğrafi Avrasiya materikini eyniləşdirərək Avrasiya uyqarlıq sahəsinin içinə Çin və Hindistanı da daxil edirlər. Bunun ziddiyyətli bir yanaşma olduğu açıqca görünür, çünki coğrafi baxımdan Avrasiya materikinə sadəcə bu ölkələr deyil, Avropa da daxildir (Qərbi Avropa, əslində Avrasiya materikinin Qərb yarımadasıdır). İkinci tərəfdən isə bu yanaşmada uyqarlıq və geopolitika nəzəriyyələri birbirinə qarışdırılır. Yəni müəlliflər bir neçə uyqarlığa ev sahibliyi edən geniş Avrasiya materiki ilə tarix boyunca tək bir uyqarlığın vətəni olan Avrasiya Bozkır Uyqarlığını öz siyasi tərcihlərinə uyğun şəkildə yozub, ikincini Uzaq Doğu və Güney Doğu Asiya hesabına genişləndirərək, əslində, anlamsız hala gətirirlər. Beləliklə, "Avrasiya Uyqarlığı" elmi statusunu itirir, çünki bu durumda ən az üç böyük uyqarlığı əhatə edən sahə tək bir uyqarlıq sahəsi kimi təqdim edilir. Bu səbəbdən "Avrasiya uyqarlığı" anlayışı da uğurlu bir tanımlama deyildir. Bundan başqa, rus ideoloqların işlətdiyi bir "Avrasiya-Rusiya" klişəsi də var ki, başdan ayağa imperializm qoxuyur; Avrasiya üzərində Rusiya hakimiyyətinə coğrafi-kültürəl və ideolojik qılıf hazırlamaqdan başqa bir işə yaramır və elmi dəyəri yoxdur.

Əslində bu geniş bölgədə min illərcə var olan uyqarlığın etnik təməli türklər, toplumsal tipologiyası (Güney zolaqlardakı əkinçiliklə bərabər) atlı-köçəri sosial-iqtisadi sistem, coğrafi ağırlıq mərkəzi isə Böyük Bozkır (Böyük Çöl) olduğuna görə "Türk uyqarlığı" adlandırıla bilərdi, lakin bu yöndə araşdırmaların başladığı son 200 ildə imperialist Batı dövlətlərinin türklərə qarşı tutduqları mövqe (siyasi türk düşmənliyi) belə bir adlandırmanın elmi ədəbiyyatda yer tutmasına mane oldu.

Bu sıxıntılı durumu açıq ifadə edən bəzi Avropalı araşdırmaçılar onun yerinə "Turan uyqarlığı" terminini təklif etdilər və XIX yüzilliyin ortalarından başlayaraq sıx-sıx işlətdilər. Lakin XX əsrin əvvələrindən bu eyilim (tendensiya) gerilədi və "Turan uyqarlığı" termini də elmi dövriyyədən çıxarıldı. Son 30 ildə termin yenidən canlandı, amma əsasən akademik çalışmalarda deyil, elmi-kütləvi ədəbiyyatda işlədilir. Akademik elmin mənsubları, təəssüf ki, bu terminə hələlik ya alışmadılar, ya da əski siyasi stereotiplər onlara mane olmağa davam edir.

Məncə də "Turan uyqarlığı" ən uğurlu termindir. Çünki həm bu uyqarlığın ana coğrafiyasını, həm etno-kültürəl onurğasını doğru ifadə edir, həm də hər hansı bir etnik və ya dini təəssübkeşlik vurğusu daşımır.

Uyqarlıq/mədəniyyət-kültür/hars anlayışlarının Ə.Ağaoğlu və Z.Gökalp tərəfindən gündəmə gətirilən başlıca aspektlərini və bunlar arasındakı təməl ayrımları qısaca gözdən keçirdikdən sonra bu terminlərin Azərbaycan türkcəsindəki durumuna baxa bilərik.

Ancaq bu anlayış və terminlərin funksional-semantik məzmununa keçmədən öncə, məsələnin ümumi aspektlərinə və sovet rejiminin bu sahədəki roluna da toxunmaq istəyirəm.

Azərbaycanda humanitar və sosial elmlərin bir çox alanında olduğu kimi, kültür və uyqarlıq araşdırmalarında da terminoloji qarışıqlıq araşdırmaların bütün aşamalarında ciddi sıxıntılar yaradır. Öncəliklə, bu sahələrdə gerçək anlamda elmi araşdırmaların çox da əski bir tarixinin olmadığını vurğulamaq gərəkir. XIX yüzyılın ikinci çərəyindən başlayaraq bəzi təşəbbüslər olmaqla bərabər, ardıcıl və nisbətən əhatəli çalışmalar ancaq 1920-ci illərdə ortaya çıxmağa başladı. Burada da diqqət edilməsi gərəkən önəmli bir cəhət var. Sovet idarəçiliyinin bir çox uyqulaması kimi, humanitar araşdırmalar da yerli sosial şəraitə əsaslanmadan, oradan güc almadan "yuxarıdan gələn əmr" tərzində başladılmış, ancaq zaman içində yerli şəraitə bir qədər uyğunlaşaraq, o dönəmin elm və təhsil ehtiyaclarını yarı-yarımçıq qarşılaya biləcək duruma gəlmişdir.

O illərdə elmi araşdırmaların ümumi strategiyası, mövzuları və akademik sərhədləri sovet kommunist ideologiyası və stali-

nist rejim tərəfindən bəlirlənməkdə olub, yerlərdə güncəl siyasi şəraitə bağlı olaraq zaman-zaman sadəcə kiçik dəyişikliklər göstərirdi. Bütün bu illər boyunca ölkənin iqtisadiyyatı kimi, təhsil, elm və kültür sahələri də kənardan verilən əmrlərlə formalaşdırılan, tamamilə Moskva mərkəzli sömürgəçi (müstəmləkəçi/kolonyalist) sistemdən başqa bir şey deyildi. Məsələnin bu yönünü anlamadan və aydınlaşdırmadan bölgədəki post-sovet dövlət və topluluqların problemlərini doğru şəkildə qavramaq və araşdırmaq imkansızdır. Belə bir ön araşdırmanın burada yapılması məqalənin sərhədlərini aşar və mövzudan çox kənara çıxar. Ona görə indilik bu təsbiti – Rusiya İmperatorluğunun və SSRİ-nin ələ keçirdikləri ölkələri (əski Rusiya tanımına görə: "koloniyaları") sömürgə düzəni içində yönətdiklərini – bir postulat olaraq qəbul edir və üzərində çox durmuram.

Yalnız bunu demək gərəkir ki, hər müstəmləkədə olduğu kimi, Sovetlərə bağlı cümhuriyyətlərin hamısında milli kültür, dil, din, elmi araşdırmalar ciddi təzyiq altındaydı, bu çalışmalara ancaq Mərkəzin məqsədlərinə xidmət edə bildiyi qədər izin verilirdi. Əlbəttə, yerli xalqların inamını qazanmaq və manipulyasiya edə bilmək üçün bəzi özgürlükçü və milliyyətçi girişimlərə də zaman-zaman göz yumuluyordu. Fəqət, kommunist və sovet zehniyyətinin təməl ideologiyası, anlayışları və terminologiyası kimi məsələlərdə güzəşt edilməsindən söhbət gedə bilməzdi.

Bu səbəbdən elm sahəsi ilə ilgili bütün anlayışlar, terminlər, mövzular və akademik qurumlar ciddi nəzarət altındaydı. Rejim (ola biləcək "təhrif" və "sapmalardan" qoruna bilmək məqsədilə) "müttəfiq" Sovet respublikalarının ana dillərində mərkəzdən bağımsız anlayış, termin, tanım və b. yaradılmasını yasaqlamışdı. Özəlliklə, Türk cümhuriyyətlərində bu yasaqlar ifrat dərəcədəydi. Bütün başlıca anlayışlar və ilgili terminlər rus dili əsasında yaradılmaqda və o biri dillərdə də eynən işlədilməsi təmin edilməkdəydi. Bəzi durumlarda isə bunlar öncə rusca yaradılır, sonradan isə mexaniki tərcümə (kalka) yöntəmiylə milli dillərdə tətbiq edilirdi. Beləliklə, elm dili (elmi üslub) mill dil içində tamamilə yad bir struktur halına gətirilirdi. Bu durum milli şüuru qısırlaşdırmaq və gənçlərin elmə gedən yolunu çətinləşdirməklə

bərabər, milli kültürün gerçək ehtiyaclarını qarşılamaqdan da uzaq idi.

Bu mövzu ilə ilgili məsələlərin nəzəri səviyyədə və ayrı-ayrı elm sahələri kontekstində bütün yönləri ilə araşdırılması həm güncəl akademik prblemləri həll etmək, həm də gələcəyə yönəlmiş strategiyalar formalaşdırmaq baxımından önəmlidir. Bu gün bunlar gerçəkləşdirilmədiyi müddətcə, sömürgəçi Sovet yönətiminin və bu yönətimin formatladığı "sovet adamı" zehniyyətinin elmdə hakim mövqelərə gətirdiyi anlayış və terminlərlə yola davam etmək mümkün olmayacaq, zira o zehniyyətin arxasındakı (sömürgəçi) sistem artıq yıxılıb, bu gün Azərbaycan Cümhuriyyəti bağımsız və suveren bir dövlətdir. Milli təhsil, elm, kültür və b. anlayışlar bu reallığa görə formatlanmalı, buna uyğun terminologiya yaradılmalıdır. Başqa ölkələrin təcrübəsi bunun çox zor bir proses olduğunu (amma imkansız olmadığını) göstərir. Əsas məsələ bu yöndə elmi araşdırma və müzakirələri başlatmaq, mövzunu detallar içində boğmadan nəticəyə doğru sürətlə irəliləməkdir.

Çağdaş Azərbaycan türkcəsində, özəlliklə də sosiologiya, psixologiya, sosial/kültürəl antropologiya, kulturologiya/mədəniyyətşünaslıq (bu da epistomoloji baxımdan problemli və süni bir termindir), uyqarlıq tarixi və nəzəriyyəsi, mifologiya və bir çox başqa sahəyə aid araşdırmaların dilində həll edilməsi çox da asan olmayan bir anlayış / məfhum və termin qarğaşası var. Özəlliklə, bu sahələrin hamısı üçün açar mövqeyində olan "mədəniyyət", "sivilizasiya", "kültür" anlayış və terminlərində elmi bir dəqiqlik görünmür.

Buna görə mövzunu təməldən ələ alaraq, öncə anlayış/məfhum aspektini, sonra da ilgili terminləri gözdən keçirmənin yararlı olacağını düşünürəm.

"Azərbaycan dilinin izahlı lüğəti"ndə "mədəniyyət" sözünün 3 anlamı göstərilir [cild III, s.317]. Bu anlamlar müəyyən qədər uyqarlıq/sivilizasiya anlayışına daxil olan ünsürləri əhatə etsə də, heç birisi "sivilizasiya" anlamını tam olaraq ifadə etmir.

Maraqlıdır ki, Azərbaycan türkcəsindəki elmi, publisistik və ədəbi mətnlərdə geniş işlədilməsinə baxmayaraq, "İzahlı lüğət"də "sivilizasiya" sözünə yer verilməyib. Buradan da anlaşılır

ki, Azərbaycan dilçiləri bu anlayışın "mədəniyyət" sözü ilə dolğun şəkildə ifadə edilə bildiyi iddiasında hələ də israrçıdırlar.

Elə buna görədir ki, tarixə aid ixtisas sözlüyündə "sivilizasiya" sözünə yer verilmişdir: "**MƏDƏNİYYƏT** 1. insan cəmiyyətinin istehsalında (? – A. A.), ictimai və mənəvi həyatda əldə etdiyi nailiyyətlər məcmusu; 2. əldə olunan belə nailiyyətin səviyyəsi" [5, s.136]. "**SİVİLİZASİYA** *lat.* 1. mədəniyyət; 2. ictimai inkişaf, maddi və mənəvi mədəniyyətin səviyyəsi, mərhələsi. Sivilizasiya dedikdə, bu və ya digər ölkələr və xalqlar qrupuna xas olan maddi, mənəvi və sosial həyatın müəyyən inkişaf mərhələsi başa düşülür" [5, s.187].

Buradan anlaşılır ki, akademik tarix elmi bu terminsiz keçinə bilmir. Yəni müxtəlif ədəbi-bədii, publisistik mətnlərdə və gündəlik dildə "mədəniyyət/kültür" və "sivilizasiya/uyqarlıq" ayrımı olmadan keçinmək mümkündür, amma gerçək anlamda elmdən söhbət gədəndə bu ayrım mütləq göz önündə tutulmalıdır.

Y.Akdoğanın sözlüyündən də açıqca görünür ki, Türkiyə türkcəsindəki "mədəniyyət"/ "uyqarlıq" və "kültür" sözləri Azərbaycan türkcəsində tək "mədəniyyət" sözü ilə ifadə edilir: "Mədəniyyət: 1. Mədəniyyət, 2. Kültür [6, s.567]. Burada sözün 1-ci anlamı, gündəlik Türkiyə türkcəsində, Z.Gökalp, Ə.Ağaoğlu və b. kimi tədqiqatçıların terminologiyasında "uyqarlıq"/"sivilizasiya" məfhumunu ifadə edir.

Başqa sözlüklərdən fərqli olaraq, "Azərbaycan dilinin orfoqrafiya lüğəti"ndə "sivilizasiya" sözünə yer verilib [7, s.578]. Bu fakt da həm İzahlı lüğətin, həm də bir çox ikidilli lüğətin müasir mərhələdə dilimizin anlayışlar xəzinəsini düzgün əks etdirmədiyinin bir dəlilidir.

Azərbaycan türkcəsinin elmi üslubunda "sivilizasiya" (uyqarlıq) və "kültür" anlayışlarının tək bir "mədəniyyət" sözü ilə ifadə edildiyi və bunun yetərsizliyi (kifayətsizliyi) ikidilli sözlüklərdə daha aydın görünür.

Örnəklər:

Civilization: 1.mədəniyyət; mədənilik; **Greek ~** yunan mədəniyyəti; **ancient China** ~ qədim Çin mədəniyyəti; 2.mədəni aləm/dünya [8, s.232].

Culture – 1. mədəniyyət; **Greek** ~ yunan mədəniyyəti… 2. inkişaf etdirmə… 3. becərmə; **-of silk/of cotton** ipək/pambıq becərmə [8, s.323].

Цивилизация – mədəniyyət; sivilizasiya [9, s.575].

Культура – 1. mədəniyyət; национальная культура milli mədəniyyət. 2. becərilmə, bəslənmə, yetişdirilmə: культура хлопка pambıq becərilməsi. 3. bitki, becərilən bitki; зерновые культуры dənli bitkilər, кормовые культуры yem bitkiləri; масличные культуры yağlı bitkilər, 4. kultura *laboratoriya üsulu ilə yetişdirilən bitkilər, bakteriyalar və s.* [10, s.719].

Sivilizasiya – цивилизация: 1. уровень общественного развития материальной и *духовной* культуры, достигнутый той или иной общественно-экономической формацией. *Avropa sivilizasiyası* Европейская цивилизация, *Roma sivilizasiyası* Римская цивилизация; 2. Современная мировая **культура** и технические достижения. *Müasir sivilizasiya* современная цивилизация; 3. истор. третья ступень в развитии общества, наступившая после дикости и варварства [11, s.178].

Mədəniyyət – 1.**культура**: 1) совокупность достижений человеческого общества в производственной, общественной и духовной жизни. *Qədim mədəniyyət* древняя культура, *antik mədəniyyət* античная культура, *zəngin mədəniyyət* богатая культура, *dünya mədəniyyəti* мировая культура, *milli mədəniyyət* национальная культура, *Azərbaycan mədəniyyəti* азербайджанская культура …; 2. **цивилизация**: 1) уровень общественного развития и материальной культуры, достигнутый той или иной общественно-экономической формацией. *Şərq mədəniyyəti* восточная цивилизация, *Avropa mədəniyyəti* европейская цивилизация; 2) современная мировая культура, просвещение передовых стран мира [12, s.353].

Kultur – 1. mədəniyyət; 2. becərmə, bəsləmə [13, s.330].

Zivilisation – mədəniyyət, sivilizasion [13, s.612].

Civilization – mədəniyyət [14, s.79].

Culture – 1) mədəniyyət; 2) inkişaf; 3) yetişdirmə; 4) əkilmiş bitkilər; 5) yerin becərilməsi [14, s.102].

Örnəklərdən göründüyü kimi, Türkiyə türkcəsində və başlıca Batı dillərində bu iki məfhum (uyqarlıq və kültür) üçün iki ay-

rı söz-termin işlədilir. Azərbaycan türkcəsində isə hər iki anlayış/məfhum tək "mədəniyyət" sözü ilə ifadə edilir (Almanca-azərbaycanca lüğətdə isə bu problemi hiss edən müəlliflər hətta bir "sivilizasion" sözü belə icad ediblər) . Bu söz-terminin yetərsiz olduğu, fərdi və ictimai şüurda "uyqarlıq"/"sivilizasiya" anlayışının "mədəniyyət" anlayışından fərqləndirildiyi göz qabağındadır. Belə olmasaydı, tarix sahəsinə aid ixtisas sözlüyündə, Rusca-azərbaycanca və Azərbaycanca-rusca sözlüklərdə, həmçinin "Azərbaycan dilinin orfoqrafiya lüğəti"ndə "sivilizasiya" sözü yer almazdı. Dilimizin təməli olması gərəkən "Azərbaycan dilinin izahlı lüğəti" isə "sivilizasiya"/"uyqarlıq" anlayışına (sözə deyil) yer vermədiyi kimi, onun yerinə qoyduğu "mədəniyyət" sözünün anlamını da qaneedici səviyyədə açıqlamır.

Ümumiyyətlə, bu sahədə durumun nə qədər acınacaqlı olduğu sözlüklərin müqayisəsindən açıq görünür. Sanki sözlükləri tərtib edənlər ayrı-ayrı qalaktikalarda yaşayırlar; eyni dilə aid sözlüklərdə eyni kəlmələr ya yoxdur, ya da əksik açıqlanır. Müəlliflər sanki real Azərbaycan elmi ədəbiyyatının, mətbuatının, sosial medianın və xalqın gündəlik dilinin deyil, öz xəyallarındakı mücərrəd bir dilin leksikoqrafiyası üzərində işləyirlər.[2]

Beləliklə, istər bəzi sözlüklər, istərsə də dil praktikası göstərir ki, çağdaş Azərbaycan türkcəsində iki məfhumun – uyqarlıq və kültür – varlığı (nəzəri cəhətdən tam olaraq tərifləri verilməmiş olsa da) bir faktdır. Bunun dildə də adekvat ifadəsi humanitar araşdırmaların məntiq yönündən uğurla aparılması və dil kültürünün doğru yöndə gəlişdirilməsi baxımından gərəklidir.

Bu məqsədlə (həm ilgili məfhumların tərifi, həm də onların dildə ifadəsinə örnək olaraq) Türk dünyasının ən önəmli filosoflarından Hilmi Ziya Ülkənin bu sahədəki tanımlamalarını xatırlamaq yararlı ola bilər.

---

[2] Əslində bu problemin miqyası çox genişdir, dilimizin bütün sahələrini əhatə edir. Sözlüklərimiz dilimizin güncəl durumunu tam əks etdirmir, qrammatikamız yad təsirlərdən qurtarılmır, yeni ehtiyaclara görə söz yaradıcılığı primitiv səviyyədədir. Özəlliklə, daha öncə dilimizdə olub Sovet dövründə qeyri-rəsmi yasaqlar üzündən işlədilməyən, ancaq müstəqillikdən sonra (qismən də Türkiyə türkcəsinin təsiri ilə) yenidən aktivləşən "millət vəkili", "qazi" kimi sözlər hələ də dilimizdə rəsmiyyət qazanmayıb. Millət vəkilinə "deputat", qaziyə "veteran" deyilməsinin nə məntiqi, nə də linqvistik əsası var. Bu yad sözlər həmin anlayışları tam olaraq ifadə etmir.

H.Z.Ülkən məşhur sözlüyündə yazır:

"**Kültür** (culture): Belirli bir toplumun karakterini meydana getiren fikirler, bilgiler, inançlar, teknik mahsulleri, davranış ve tavır tipleri sistemidir. Kültürün saklanması ve kazanılması biyolojik değil, sosyal bir süreçtir, bunun için de bazen ona "toplum mirası" denir. Kültürün temel olgusu dil, yani insanlararası bildirmeye yarayan semboller sistemidir. Dil olmadan hiç bir toplum kurumu ve değeri gelişemez. Üretim, dağıtım, tüketim gibi bütün teknik ve bilgiye ait işlemler dil birleştirmesi olmadan işleyemezler. Fakat burada kültürün iki şekli birbirine ne kadar sıkı bağlı olsa da yine araştırma bakımından ayrılabilir: 1) maddî kültür ki, bütün üretim araçlan, taşıtlar, saklama ve korunma aletleri buraya girer. 2) manevî kültür ki, fikirler, inançlar, duygular ve davranışlar da buraya girer. Kültürü inceleyenler bu iki yanı ayırmaqla birlikte, onların gerçekte birbirine bağlı bir bütün olduğunu gözönünde bulundururlar" [15, s. 185].

"Uygarlık (civilisation): Bazı dillerde, mesela fransızcada uygarlık (eski ter.: "medeniyet") ile kültür (eski ter.: " hars") aynı "civilisation" kelimesi ile ifade edilir. İngilizce'de daha çok "culture" kelimesi kullanılır. Almanlar Civilization ve Kultur kavramlarmı ayırırlar. Gokalp, Durkheim'in bir makalesine dayanarak (Anne Sociologique, vol. 12) almanlar gibi bu ayırış üzerinde israr etti. Onca uygarlık ("medeniyet") milletlerarası olduğu halde, kültür ("hars") millidir. Bu ayırış bizce fazla kesindir ve iki kavramı daha çok birincisinin statik, ikincisinin dinamik olması bakımından ayırmalıdır. Kültür yaratıcı, uygarlık yaratılmıştır. Bir alman, fransız kültürü olduğu gibi bir Avrupa kültürü de vardır. Fakat bu kültürlerin ürünleri (eserler, fikirler) olarak uygarlık dünyaya yayılma gücündedir..." [15, s.307].

H.Z.Ülkenin təsbitləri ona görə önəmlidir ki, araşdırmaları başladan Z.Gökalp, Ə.Ağaoğlu kimi müəlliflərin əsərlərindən təxminən 50 il sonra bu görüşləri (tarix sınağından keçən və keçməyən yönlərini də diqqətə alaraq) ümumiləşdirmiş və bu yöndəki araşdırmalarda yeni mərhələ oluşdurmuşdur.

Fəqət bu gündən baxarkən, H.Z.Ülkənin klassik sosioloji axarında formalaşan görüşlərinin artıq qismən köhnəlmiş olduğu ortadadır. Lakin bunların tamamilə rədd edilməsi deyil, güncəl

araşdırmalar (özəlliklə sosio-kültürəl antropoloji) işığında yeni yanaşmalarla dəstəklənməsi gərəkir.

Bu yanaşma çərçivəsində Z.Gökalp və Ə.Ağaoğlu tərəfindən təməli qoyulan, M.Turhan, H.Z.Ülkən və b. müəlliflər tərəfindən gəliştirilən yüzillik Türk kültür araşdırmalarının bu gün gəldiyi nöqtədə başlıca tezisləri ümumiləşdirərək bunu demək mümkündür: Azərbaycan türkcəsində "uyqarlıq" (mədəniyyət/sivilizasiya) ilə "kültür" (mədəniyyət) anlayış ve terminləri örtüşmə seqmentleri yetərincə geniş olan yaxın məfhumlar/qavramlar olsalar da, nəticə etibarilə eyni deyillər və buna görə ikisinin də (hər dövrdə elmin yeni uğurları göz önündə tutularaq) dəqiq tərifi verilməli və məfhumlar fərqli olduğu kimi, bunları ifadə edən terminlər də fərqli olmalıdır. Gökalp və Ülkən tərəfindən də açıqca göstərildiyi kimi, uyqarlıq statik olanı, kültür isə dinamik olanı ifadə edir. Mən antropoloji yanaşma çərçivəsində bunu belə formullaşdırıram: uyqarlıq əsərlər/ürünlər/məhsullardır, kültür isə sürəçlər/proseslərdir. Buna görə ("kültür" sözünün Latınca "becərmək"/"yetişdirmək" anlamlarını yada salaq) hər hansı bir məhsul (bitki) uyqarlıq məhsulu/ürünüdür, onun yetişdirilmə/becərilmə prosesi isə kültürdür. Bir texniki vasitə (maşın/alət və s.) uyqarlıq əsəri/ürünüdür, onun ürətim və istifadə prosesi/sürəci (vərdişlər, qaydalar, üsullar və b.) isə kültür sahəsinə aiddir.

Son zamanlar maddi və maddi olmayan kültür mirası anlayışlarının ayrılması da bu məntiqə görə gerçəkləşmişdir. Maddi dəyərlər gündəlik həyatda və ya muzeylərdə qoruna bilər, maddi olmayan kültür dəyərlərini isə muzeylərdə yaşatmaq mümkün deyil. Çünki bunlar somut/konkret əsərlər/ürünlər deyillər, yaşam içində gerçəkləşən sürəclərdir. Aşıq məclisi, Novruz mərasimi, çillə çıxarma, fal açma, süfrə kültürü və b. kimi gələnəklər daim dəyişən, gəlişən və zaman içində itib gedə bilən sürəclərdir. Ona görə günümüzdə bütün dünyada bu dəyərlərin təsbiti və qorunması önəm qazanmışdır.

Beləliklə, çağdaş Azərbaycan türkcəsində kültür (mədəniyyət) və uyqarlıq (sivilizasiya) anlayışlarının varlığı bir gerçəklikdir. Və bu gerçəklik terminoloji planda da özünə yol açmağa çalışır ("mədəniyyət" və "svilizasiya" terminlərinin dildəki funksional-semantik yükü bunu göstərir). Lakin bu proses bir tərəfdən

sözlük tərtibçilərinin gərəksiz mühafizəkarlığı, bir tərəfdən də bu məfhumların semantik planda yetərincə tanımlanmaması səbəbindən çox yavaş gedir. Halbuki Türkiyə və Azərbaycanda humanitar elmlərin gəldiyi nöqtədə bu maneələrin aşılması və Azərbaycan türkcəsində lazımi terminoloji islahatın aparılması heç də çətin və ya imkansız deyil. Ümid etmək olar ki, sivilizasiya yerinə ana dilimizdə "uyqarlıq" və mədəniyyət yerinə də artıq dilimizdə kökləşmiş olan "kültür" söz-terminləri intensiv olaraq istifadə edilməyə başlayacaq. Zatən "kültür" sözü "kulturologiya", "kulturoloq", "kulturoloji" kimi sözlərin tərkibində dilimizdə işlədilməkdədir. "Sivilizasiya" sözü isə sifət törətmək baxımından məhsuldar olmadığına görə "uyqar" sözü ilə əvəz edilməlidir: məs., "sivilizasiyalı xalq / millət" demək mümkün deyil, amma "uyqar xalq / millət" deyilə bilir; "sivil insan" isə heç də "sivilizasiyalı (?) insan" anlamında deyil, halbuki "uyqar insan" sivilizasiyanı mənsimsəmiş insandır. (Bir kompromis kimi, mövcud "mədəniyyət" sözünün də "sivilizasiya" anlamında işlədilməyə davam etməsini qəbul etmək olar. Onun kökündəki "mədinə" (şəhər) sözü etimoloji baxımdan "sivilizasiya" kökünün tam sinonimidir.)

Nəticə. Nəticə etibarilə, deyə bilərik ki, Ə.Ağaoğlu və Z.Gökalpın simasında Türk sosioloji düşüncəsi bir "uyqarlıq+kültür" nəzəriyyəsi ortaya qoymuş və günümüzə qədər də bunu uğurla gəlişdirməkdədir. Azərbaycan humanitar araşdırmalarında bu elmi-nəzəri uğurun terminoloji ifadə səviyyəsində də gerçəkləşdirilməsi, şübhəsiz, elmimiz qarşısında yeni inkişaf perspektivləri açacaqdır.

İstifadə edilmiş ədəbiyyat:

1. Əziz. Mirəhmədov Əhməd bəy Ağaoğlu. Bakı: Ərgünəş, 2014.
2. Əhməd Ağaoğlu. Üç mədəniyyət. İstanbul: Doğu kitabevi, 2013.
3. Əhməd Ağaoğlu. Üç Kültür // Kültür Haftası, № 1, 15 ikinci kanun, 1936.
4. Əhməd Ağaoğlu. Bir Kültürdən Ötəkinə // Kültür Haftası, № 2, 22 ikincikanun 1936.
5. İbrahim Zeynalov. İzahlı Tarix Terminləri Sözlüyü. Bakı: Azərnəşr, 2006.

6. Yaşar Akdoğan, Azərbaycan türkcəsindən Türkiyə türkcəsinə Büyük Sözlük. II cild, İstanbul: Bəşir yayınları, 1999.
7. Azərbaycan dilinin orfoqrafiya lüğəti. Bakı: Lider, 2004.
8. İngiliscə-azərbaycanca lüğət. Bakı: Şərq-Qərb, 2004.
9. Rusca-azərbaycanca lüğət. III cild, Bakı: Şərq-Qərb, 2005.
10. Rusca-azərbaycanca lüğət. I cild, Bakı: Şərq-Qərb, 2005
11. Azərbaycanca-rusca lüğət. IV cild, Bakı: Şərq-Qərb, 2006.
12. Azərbaycanca-rusca lüğət. III cild, Bakı: Şərq-Qərb, 2006.
13. Almanca-azərbaycanca lüğət. Bakı: Şərq-Qərb, 2007.
14. Fransızca-azərbaycanca lüğət. Bakı: Şərq-Qərb, 2007.
15. Hilmi Ziya Ülken. Sosyoloji sözlüğü. İstanbul: Milli Eğitim Basımevi, 1969.

Arif Ajaloglu

CONCEPTS OF CULTURE-CIVILIZATION IN THE LIGHT OF THE WORK "THREE CULTURES" BY AHMET AGAOGLU

Summary

Ahmet Agaoglu's work "Three Civilizations" occupies an important place in his intellectual legacy. In this work, A.Agaoglu compared Buddhist, Islamic and Western civilizations and argued that the latter is victorious over the others, and that the Turks should choose it for the sake of their own future. In "Three Civilizations", these topics are explored without making a distinction between the concepts of culture and civilization. As it was the case with Turkish language at the time, both A.Agaoglu and the famous Turkish sociologist Ziya Gökalp used the word "mədəniyyət" (culture) in the meaning of civilization. Later, Gökalp's proposal to distinguish between the words of civilization and culture gained a central position in Turkish social thought. In European languages, these two concepts are also expressed by separate words and terms. The lack of distinction between these two concepts in Azerbaijani Turkish (both are expressed with the word "mədəniyyət"), however, creates both epistemological and terminological issues. This article examines the functional semantic and lexicographic aspects of the problem and proposes instead the words "uygarlık" and "kültür" for clearer expression of concepts of civilization and culture in Azerbaijani Turkish.

Keywords: Ahmet Agaoglu, "Three Civilizations", culture, civilization